# 20 YANVAR ƏRƏFƏSİ

Yanvarın 9-da Ermənistan parlamenti Dağlıq Qarabağı öz büdcəsinə daxil etmək qərarına səs verdi və bu addım azərbaycanlıları qəzəbləndirdi. Qarabağın şimalında - Xanlar və Şaumyan rayonlarında ermənilərlə azərbaycanlılar arasında toqquşmalar baş verdi, insanlar girov götürüldü, daxili qoşunların dörd əsgəri öldürüldü...

Yanvarın 12-də Viktor Polyaniçko yeni təzadlı plan irəli sürdü. Onun Xalq Cəbhəsi ilə apardığı danışıqların nəticəsində respublika sərhədlərini erməni təcavüzündən qorumaq üçün Azərbaycanda «Milli Müdafiə Şurası»nın yaradılacağı bəyan olundu. Xalq Cəbhəsinin fəalları televizayada çıxış edərək bildirdilər ki, Bakı evsiz qaçqınlarla doludur, amma minlərlə erməni burada rahatlıq içində yaşayır. Yanvarın 13-də Bakıda bir ermənin iki azərbaycanlını öldürməsinə cavab olaraq erməni talanları başladı. SSRİ Daxili İşlər Nazirliyinin 12 minlik silahlı dəstəsi və yerli hüquq mühafizə orqanları seyrçi mövqe tutdular. Həmin gün Azərbaycan KP MK-nın birinci katibi Ə.Vəzirov Moskvaya teleqram vurub tələb etmişdi ki, antisovet, antipartiya şüarları ilə mitinq edən ekstremistlərin liderləri dərhal məsuliyyətə cəlb edilməlidir.

Yanvarın 14-də vəziyyəti nəzarətə almaq üçün Qorbaçovun yaxın siyasi silahdaşı Yevgeni Primakovun başçılığı ilə Siyasi Büronun nümayəndə heyəti Bakıya gəldi. Dağlıq Qarabağda, Azərbaycanın və Ermənistanın sərhədyanı rayonlarında və Gəncədə fövqəladə vəziyyət tətbiq etmək qərarı verildi. Ancaq bu qərar Bakıya şamil olunmadı. Yanvarın 17-də Azərbaycan KP MK-nın qarşısında mitinqlər təşkil olundu. Burada dar ağacları qurulmuşdu. Ancaq nə Azərbaycan rəhbərliyidən, nə Moskvadan səs-səmir çıxmırdı, etirazçılara qulaq asan, cavab verən, tələbləri yerinə yetirən tapılmırdı. Hadisələrin qanla qurtaracağı şəksiz idi.

### NEFTÇALADA DA HADİSƏLƏR PİK HƏDDƏ ÇATMIŞDI

Bakıdan, Cəlilabaddan, Lənkərandan aramsız gələn narahat xəbərlər ehtiraları coşdururdu. O vaxt ən güclü hərəkat Cəlilabadda və Lənkəranda olmuşdu. Neftçalada da vəziyyət kulminasiya həddinə çatmışdı. Deyilən rayonlarda baş verən hadisələr Neftçala cəbhəçilərinə güclü təsir göstərir, onları da radikal hərəkətlərə təhrik edirdi. Cəlilabadda Miralim Bəhramovun başçılığı ilə keçirilən mitinqlərdə küçə atışmaları olmuş, raykomun, polisin binaları dağıdılmış, avtobuslara od vurulub yandırılmış, birinci katib Xeyrulla Əliyevin başı yarılmışdı.

Bakıya uyğun olaraq Neftçalada da Milli Müdafiə Şurası yaradılmışdı. Şuranın sədri Fərman Hüseynov, üzvləri isə Nizami Nəcəfov, Valeh Hacıyev, İmanverdi Zeynalov, Ələkbər Talıbov, Ramiz Hüseynov, Abıhüseyn Qənbərov seçilmişdilər. Rayonda bütün məsələlərə bu şura rəhbərlik etməyə başlamışdı. Gözləmək olardı daha hamının etimad göstərdiyi vəziyyətə nəzarət edən, cavabdehlik daşıyan qurum tapılıb, hərc-mərcliyə, özbaşnalığa son qoyular. Ancaq belə olmadı. O qarışıq, mürəkkəb şəraitdə hərc-mərcliyə, özbaşınalığa belə asanlıqla son qoyula bilməzdi də.

### QABAQCADAN PLANLAŞDIRILMIŞ QANLI CİNAYƏT, DİNC ƏHALİYƏ QARŞI ELAN OLUNMAMIŞ MÜHARİBƏ

Çox vaxt deyirik: 1990-cı ilin 20 yanvarında sovet qoşunu fövqəladə vəziyyət elan olunmadan Bakıya girdi və xalqı qırdı. Əslində, o vaxt fövqəladə vəziyyət elan olunmuşdu və buna elə «özümüz» razılıq vermişdik. «Xalq qəzeti»nin 19 yanvar 2017-ci il tarixli sayında yazıldığı kimi: «1990-cı il yanvarın 15-də Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Elmira Qafarova Moskva şəhərində ezamiyyətdə olduğu vaxt Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin qeyri-qanuni iclasında yetərsay olmadığı halda, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Əbdürrəhman Vəzirovun təkidi ilə qəbul edilmiş qərarda Azərbaycanda fövqəladə vəziyyətin tətbiq edilməsinə razılıq verilmişdi. Bu, bir daha təsdiq edir ki, 20 Yanvar faciəsi qabaqcadan planlaşdırılmış cinayət aktıdır». Fövqəladə vəziyyətin yanvarın 20-də saat 00-da tətbiq edilməsi əmr olunsa da, qoşun hissələri Bakıya yanvarın 19-da saat 21-dən yeridilməyə başlandı. Elə həmin vaxtda da DTK-nın «Alfa» qrupu tərəfindən respublika televiziyasının enerji bloku partladıldı, fövqəladə vəziyyətin tətbiqi barədə məlumatın xalqa vaxtında çatdırılmasının qarşısı alındı. Ən çox elə bu məlumatsızlığa görə adamlar çaş-baş qaldılar, daha çox itki verdilər. Faciə baş verən gündən başqa kütləvi informasiya vasitələrinin də fəaliyyəti dayandırıldı, xalq informasiya almaq hüququndan məhrum edildi.

Bakıya qoşun yeridiləndə tanklardan, zirehli transportyorlardan, piyadaların döyüş maşınlarından istifadə olunmuşdu. Zirehli texnikanın üstündə nömrələr olmamışdı. Qırmızı Bayraq ordenli Xəzər Hərbi Dəniz Donanmasının gəmilərindən desant çıxarılmışdı. Tanklar və ZTR-lər (zirehli transportyorlar, rus «BTR»ləri və başqa zirehli daşıyıcılar) Bakı küçələrində qarşılarına çıxan hər şeyi əzmiş, həbrçilər hər yanı amansız atəşə tutmuşdular. İnsanlar nəinki küçələrdə, hətta avtobusda gedərkən, öz mənzillərində oturduqları yerdə güllələrə tuş gəlmişdilər. Azğınlaşmış hərbçilər yaralıları aparmağa gələn təcili yardım maşınlarını və tibb işçilərini də atəşə tutmuşdular.

SSRİ Müdafiə Nazirliyinin, DİN və DTK-nın hazırlayıb həyata keçirdiyi «Udar» adlı əməliyyatda əsas rolu xüsusi təyinatlı «Alfa» və SSRİ DTK-nın «A» təxribat qrupları oynayırdı. Sonradan isə məlum oldu ki, Bakıya hücum çəkib qırğın törədən hərbi hissələrin şəxsi heyəti arasında cinayətkarlar və ermənilər də olub.

Planlaşdırılmış bu cinayət əməliyyatını həyata keçirmək üçün yüksək rütbəli hərbçilər Bakıya gəlmişdilər. Həmin əməliyyat SSRİ müdafiə naziri Dmitri Yazovun, SSRİ daxili işlər naziri Vadim Bakatinin və SSRİ Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini Filipp Babkovun rəhbərliyi altında həyata keçirilmişdi. Fövqəladə vəziyyət haqqında rəsmi məlumatı komendant Dubinyak yalnız qırğın törədildikdən sonra, yanvarın 20-də saat 5:30-da efirə vermişdi. Bakılıların əksəriyyəti fövqəladə vəziyyət barədə xəbəri ilk dəfə Mirzə Xəzərin səsi ilə Azadlıq Radiosundan verilən verilişdən eşitmiş, bu barədə vertolyotlardan atılmış vərəqələrdən xəbər tutmuşdular.

### QOŞUNLARIN BAKIYA GİRMƏSİ

Bəzi mənbələrə görə, Primakov Qorbaçova zəng edib onu razı salmağa çalışırmış ki, hərbi müdaxiləyə icazə verməsin. Onda sovet rəhbərliyi bu qanlı cinayətə başlamağa tərəddüd edirdi. Nəhayət, Qorbaçov və onun güc nazirləri yanvarın 19-dan 20-nə keçən gecə Bakıya qoşun yeritməyi qərarlaşdırdılar. Əsgərlər və tanklar hərbi hissədən çıxıb şəhərə tərəf irəlilədilər. Şəhərə cənub tərəfdən daxil olan qoşunların böyük hissəsi yerli qarnizonlardan idi və şəhərə atəş açmadan girə bildilər. Şimaldan gələn qoşunlar isə şəhərə elə daxil oldular ki, elə bil Bakı düşmən əlində idi. Tanklar yollardakı avtomobilləri və hətta təcili yardım maşınlarını basaraq barrikadalardan keçirdi. Şahidlərin sözlərinə görə, əsgərlər qaçan adamları atəşə tutur, yaralıları süngüləyir və güllələyirdilər. Dinc sakinlərlə dolu avtobus güllələbarana tutuldu, bir çox sərnişinlər qətlə yetirildi. SSRİ tarixində ilk dəfə idi ki, Sovet Silahlı Qüvvələri Sovet şəhərinə - Bakıya hərbi müdaxilə edirdilər. Bu, həm Azərbaycan, həm də Sovet İttifaqı üçün böyük faciə oldu. Ordu hissələri cəmi bir neçə saat ərzində şəhəri tam nəzarətə aldı və Moskvanın hakimiyyətini bərpa etdi. Ancaq Moskva məhz elə 1990-cı il yanvarın 20-də Azərbaycanı itirdi.

### QIRĞINLARIN NƏTİCƏLƏRİ

Qırğınların nəticələri dəhşətli idi. Gözü qızmış hərbçilər fövqəladə vəziyyət başlanana qədər 67 nəfəri şəhadətə yetirmişdilər. Yanvarın 20-də və sonrakı günlərdə Bakıda daha 57 nəfər şəhid edilmiş, ümumilikdə Bakı və rayonlarda 147 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbsə alınmış, 200 ev, mənzil, 80 avtomaşın, o cümlədən, təcili yardım maşınları məhv edilmiş, qırğına etiraz kimi Bakı buxtasına daxil olan Xəzər neft donanmasının gəmiləri hərbi gəmilər tərəfindən mühasirəyə alınaraq gülləyə tutulmuşdu. Yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdi. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, təcili yardım işçiləri və milis nəfərləri olmuşdu.

Respublikamız üçün belə bir faciəli gündə Azərbaycan Kommunist partiyası Mərkəzi Komitəsinin birinci katibi Əbdürrəhman Vəzirov xalqa qarşı xəyanətkarlıq yolu tutaraq, öz iş yerində olmaq əvəzinə, yanvarın 21-də yalnız şəxsi təhlükəsizliyini təmin etmək üçün gizli şəkildə hərbi təyyarə ilə Moskvaya qaçmışdı. Öz hakimiyyətini, nəyin bahasına olursa-olsun, qoruyub saxlamaq məqsədi güdən Əbdürrəhman Vəzirov bu ağır cinayətin bilavasitə təşkilatçısı olmuşdu.

Azərbaycan xalqını dəhşət və müsibətə düçar etmiş 20 Yanvar faciəsi bütün dünyada əks-səda doğurmuş, mütərəqqi qüvvələrin qəzəb və hiddətinə səbəb olmuşdu. Sivil dövlətlərin təcrübəsindən fərqli olaraq Azərbaycanın siyasi rəhbərliyi nəinki istefaya getməmiş, faciəli gündə ölkə rəhbərliyi bu faciəyə rəsmi bəyanatla münasibətini bildirməmiş, xalqın qəzəbindən qorxaraq şəhidlərin dəfn mərasimində iştirak etməmiş, yas içində olan xalqa başsağlığı belə verməmişdi.

### ÖLDÜRÜLÜB DİRİLƏN, TƏZƏDƏN DİRÇƏLƏN XALQ

1990-cı ilin qanlı yanvarında Azərbaycan xalqı rus imperiyası tərəfindən «öldürüldü» və təzədən bir də dirildi. Özü də əvvəlkindən fərqli, - daha mətin, daha yenilməz şəkildə. Ona ilk nəfəs verən isə «Azadlıq» radiosunun aparıcısı Mirzə Xəzər oldu.

...Televiziya susdurulmuş, mətbuatın fəaliyyəti dayandırılmış, Azərbaycan dünyadan tamamilə təcrid edilmişdi. Məlumatsızlıq qədər qorxulu şey yoxdur. Bu elə bir nigaranlıq yaradır ki, çoxları ona dözə bilmir, ürəyi partlayaraq ölür. Belə bir vəziyyətdə gecə qoşun hissələri şəhərə daxil olmuş, fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz qalan əhaliyə vəhşicəsinə divan tutmağa başlamışdı. Bu da elə vahimə yaratmışdı ki, kütlə şoka düşmüşdü. Elə bil qoşun bütün xalqı qırmağa gəlmişdi. Onlar heç nəyə məhəl qoymadan qarşılarına çıxanları gülləyə tutub öldürürdülər. Əsəbləri zəif adamlar, xalqına bağlı ziyalılar elə həmin gecə sağalmaz dərdlərə düşdülər, bu müsibətə dözməyərək ürək ağrısından öldülər...

Azərbaycanın dünyanın təcrid edildiyi belə bir faciəli gecədə birdən radio dalğalarında «Azadlıq» radiosunun aparıcısı Mirzə Xəzərin xilasedici səsi eşidildi, bus əs sirli bir qüvvə kimi Mixail Qorbaçovun informasiya blokadasını yardı, onu dinləyənlərin qəlbində, ruhunda ümid qığılcımı yaratdı. Şair, publisist Məlahət Ağacanqızı bu təsirli anı özünəməxsus şəkildə təsvir edərək yazır ki, 20 Yanvarın o müdhiş gecəsində hamımız bir yerə yığışıb sumuşduq. Otaq adamla dolu olsa da, heç kəs dinib danışmırdı. Qadınlar səssizcə ağlayırdılar, kişilərsə çarəsizlikdən elə bil baxışları ilə yeri yarıb ora girmək istəyirdilər. Qardaşım həyəcanla radio dalğalarını ələk-vələk edirdi ki, bəlkə hardansa bu barədə səhih bir məlumat əldə edə bilsin. Ancaq heç yerdən bu barədə heç bir məlumat vermirdilər. Bütün dünya susurdu. Elə bil dünyanın bizi görən gözləri, bizi eşidən qulaqları tutulmuşdu, dünya bizə qarşı kor olmuşdu... Birdən radio dalğalarının arasından Mirzə Xəzərin tanış səsi eşidildi. Hamı nəfəsini içinə çəkib kiridi və təzədən özünə gələrək dirildi. O səs möcüzəyə bənzəyirdi! Elə bil bütöv bir xalqın haqq səsi, boğulan ahnaləsi Mirzə Xəzərin o kövrək səsi ilə hıçqırıq çəkərək ağlayırdı! Mirzə Xəzər həmin o 20 Yanvar gecəsində bir əsrlik iş gördü, ölməkdə olan Azərbaycan xalqını məzardan çıxardı, təzədən diriltdib dünyaya qaytardı, şəhid övladlarını dəfn etmək üçün ona güc, qüvvət verdi.

### XALQIN İRADƏSİ, TƏLƏBİ, ÖNDƏ GEDƏNLƏRİN MƏSULİYYƏTİ, DƏYANƏTİ

Hər bir ailə, tayfa da, hər bir millət, xalq da çətin vaxtlarda, dar ayaqda özünün öndə gedənlərinə, böyüklərinə, ağsaqqallarına güvənir, nicatı, xilası onlardan gözləyir, onlardan umur. Heyf ki, bütün öndə gedərlər, böyüklər, ağsaqqallar heç də həmişə bu inamı, etimadı layiqincə doğrultmağı, ailəsini, tayfasını, millətini, xalqını layiqincə qorumağı bacarmırlar. O müdhiş gecənin ertəsi günü, yanvarın 20-də özündə güc tapıb küçəyə çıxan, heç bir təhlükədən qorxmadan ölümün gözünə dik baxan, Mərkəzi Komitənin qarşısında mitinqə toplaşan paytaxt ictimaiyyəti də hərəkəti, nicatı ilk növbədə öndə gedənlərdən, rəhbərlərdən, ziyalılardan, ağsaqqallardan umur, onlardan gözləyir, onlardan tələb edirdilər. Bu umacağa layiqincə cavab verən, qəlbən xalqa yanan, bağlı olan rəhbərlər, ağsaqqallardan umur, onlardan gözləyir, onlardan tələb edirdilər. Bu umacağa layiqincə cavab verən, qəlbən xalqa yanan, bağlı olan rəhbərlər, ağsaqqallar, ziyalılar da vardı, dəyanətsizlik göstərərək yaxasını kənara çəkənlər də. O çətin sınaqdan uğurla çıxan, xalqın qəlbində qəhrəman kimi qalan ağsaqqal ziyalılarımızdan biri də müqtədir şairimiz Bəxtiyar Vahabzadə olmuşdu. Çoxlarının bildiyi kimi, o vaxt Bəxtiyar Vahabzadə AzTV-nin qarşısına gələrək oradakı bir generalın üzünə tüpürmüşdü. Bu, şüurlu şəkildə ölümün üstünə getmək, özünü şüurlu şəkildə şəhid etmək, sözün əsl mənasında qəhrəmanlıq göstərmək demək idi. Ən maraqlısı isə Bəxtiyar Vahabzadənin üzünə tüpürdüyü general Ovçinnikovun özünün dedikləridir. Bunu həmin hadisənin şahidi Firuz Mustafa belə xatırlayır:

«Ovçinnikov üzünün tüpürcəyini siləndən sonra bir qrup adamı «özünün» AzTV-dəki «kabineti»nə yığdı. O, artıq B.Vahabzadənin kim olduğunu öyrənmişdi. Kabinetdəki adamlara dedi: «Mən bu adamı tanımırdım, indi məlumat verdilər ki, məni təhqir edən şəxs şairdir, akademikdir, deputatdır, universitet müəllimidir. Özümü xoşbəxt sayıram ki, adama əl qaldırmadım. Onu bu hərəkətinə görə gülləyə bilərdim. İndi Bakıda təsadüfi güllənin qurbanlarından biri də bu şair olacaqdı. Amma mən onun ötkəm hərəkətindən hiss etdim ki, qarşımdakı şəxs sıravi adam deyil, «aksakaldır», hörmət sahibidir. Mən özüm yetimxanada böyümüşəm, özü də Daşkənddə, müsəlmanların çörəyi ilə böyümüşəm. Oradakı qonşularımın bir qismi azərbaycanlılar idi. Mən onlarla dost olmuşam. Çoxu yetimliyin nə olduğunu bilmir. Mən kimsəsiz böyümüşəm. Şərqə bələd adamam. Məni bu şəhərə dinclik yaratmaq üçün göndəriblər, buradakı qırğın məndən əvvəl törədilib. Mən vicdanı təmiz adamam. Əgər bir balaca ehtiyatsızlıq edib öz adyutantıma işarə etsəydim sizin, lap elə bizim bu şair artıq həyatda yox idi. Mən xoşbəxtəm. Xoşbəxtəm ona görə ki, adım tarix kitablarında Dantesin və Martınovun adı ilə yanaşı çəkilməyəcək. Yəqin ki, bilirsiz, Dantes Puşkinin, Martınov Lermontovun qatili olub. Mən nə qatiləm, nə də cani...»

Məlumat üçün deyək ki, Rusiya Federasiyası Daxili İşlər Nazirliyinin rəhbər əməkdaşı, general-polkovnik, hüquq elmləri doktoru Vyaçeslav Viktoroviç Ovçinnikov 1946-cı ildə Tambov vilayətində anadan olub, Rusiya Federasiyası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının baş komandanı vəzifəsini aparıb. Hazırda Federal Dövlət «Rosvoorujenie» Korporasiyası baş direktorunun müşaviridir.

*(Davamı 15-ci səhifədə)*



# 20 YANVAR ƏRƏFƏSİ

*(Əvvəli 12-ci səhifədə)*

**NEFTÇALA 90-nın YANVARINDA 25 YANVAR - NEFTÇALA QIRĞINI**

20 Yanvar ərəfəsində Neftçalada da gərgin anlar yaşanır, həyəcanlı hadisələr baş verirdi. Yanvarın 19-dan 20-nə keçən gecə Natiq Hüseynov, Hüseynqulu Zeynalov, bir çox başqa radikal cəbhəçilər bütün şəhərdə həyəcan qaldıraraq əhalinin çoxunu Xalq Cəbhəsinin binası qarşısına yığmışdılar. Telestudiyanın enerji bloku partladıldığı üçün Bakıdakı vəziyyətdən xəbərimiz yox idi. Respublikanın hər yerindən Bakıya zəng edildiyindən yollar tıxac idi, ora zəng etmək mümkün deyildi. Çətinliklə də olsa, Bakıya zəng edə bildik, vəziyyətdən xəbərdar olduq...

Məlumat gəldi ki, sovet qoşunları tanklarla Salyan və Neftçala körpüsündən keçərək cənub istiqamətinə gedəcək. Rayon partiya Komitəsinin birinci katibi Şamil Hüseynov başda olmaqla hamı Bankə qəsəbəsindəki körpüyə yollandı. Yanğından mühafizə maşınları da körpünün yanında idi. Uşaqdan böyüyə əli silah tutan bütün adamlar bura gəlmişdi, birlik nümayiş etdirirdilər. Ələmməd Talıbov səsgücləndirici ilə körpünün üstündə adamları istiqamətləndirirdi.

Gecə saat 12-də xəbər gəldi ki, qoşunlar artıq bir neçə istiqamətdən Bakı şəhərinə daxil olub, ölənlər və yaralananlar var. Hamı həyəcan keçirməyə başladı. Şamil Hüseynov Bakıya zəng edərək müəyyən yerlərlə əlaqə saxladı. Bildirdi ki, qırğın xəbəri düzdür. Körpünün üstündə toplaşanlara göstəriş verildi hamı evinə dağılışsın. Ertəsi gün saat 10-da şəhər mədəniyyət evinin qarşısında etiraz mitinqi keçiriləcəyi elan olundu və hərə evinə getdi.

Yanvarın 20-də səhər saat 10-da Neftçalada hamı mədəniyyət evinin qarşısında toplaşdı. Adamlar bura özlərindən ixtiyarsız gəlir, elə bil bir-birlərinə pənah gətirirdilər. O gün AXC-nin rayon şöbəsi burada görünməmiş bir izdihamlı mitinq keçirdi. Rayon mədəniyyət evinin qarşısındakı geniş meydan heç vaxt bu qədər adam görməmişdi. Elan edildi ki, AXC bu gündən öz fəaliyyətini yalnız rayonda asayişin qorunub saxlanmasına, şəhidlər üçün hüzür mərasiminin təşkilinə yönəldəcək. Qərara alındı ki, bu meydanda böyük bir çadır qurulsun, Bakıda azadlıq uğrunda mübarizədə qurban gedən şəhidlərə əza məclisi təşkil edilsin. Elə də edildi. Çadır üçün dəmir direklərin, yelkənlərin, çadırın içərisinin qızdırılması üçün dəmir sobanın, odunun tapılıb gətirilməsində Neftçala pambıqtəmizləmə zavodunun direktoru Bahəddin Leysanov xüsusilə fərqləndi.

**RADİKAL CƏBHƏÇİLƏRİN YERSİZ HƏRƏKƏTLƏRİ, NEFTÇALANIN İLK YANVAR ŞƏHİDİ**

Bakıdakı 20 Yanvar qırğınından sonra Neftçalada vəziyyət daha da gərginləşmişdi. Xalq Cəbhəsi rayon qərargahının qarşısına hər gün minlərlə adam yığışır, bu cinayəti törədənlərin cəzalandırılmasını tələb edirdi. Belə qarışıq vaxtda səhvlər də çox olurdu. Xüsusilə Neftçaladakı və Bankədəki hərbi hissələrə münasibət məsələsində bu özünü göstərirdi. Özünü cəbhəçi adlandıran araqarışdıranlar tez-tez yersiz hərəkətlər edir, bir-birinin ardınca ciddi səhvlərə yol verirdilər. Bunu onlara başa salmaq, onları belə hərəkətlərdən uzaqlaşdırmaq mümkün olmurdu.

Yanvarın 21-də axşamüstü Xalq Cəbhəsinin qərargahına yığılıb Bakıdakı hadisələrdən danışır, oradakı vəziyyəti öyrənməyə çalışırdıq. Fasiləsiz Bakıya zəng vursaq da, heç bir nömrəyə düşə bilmirdik. Ora çox zəng vurulduğu üçün yollar həmişə tıxac olurdu. Oqtay Orucov axır ki, Bakıda yaşayan qardaşı Şəmsəddingilin nömrəsinə düşə bildi. Təzə danışmağa başlamışdı ki, birdən evdə səs-küy qopdu, şivən səsi gəldi. Oqtay nə qədər «alo», «alo» desə də hay verən olmadı. Onun rəngi ağardı. Dəstəyi yerinə qoyub ürəyini tutdu. Tez başına yığışdıq, nə olduğunu xəbər aldıq. Dedi ki, qardaşımgildə nəsə oldu, deyəsən Şəmsəddini vurdular... Sonradan öyrəndik ki, Oqtay düz hiss edibmiş, yəqin ki, o, telefonda Şəmsəddinin uşaqlarından birinin «ay ata!» harayını eşidibmiş. Onda Salyan kazarması tərəfdən atılan güllələrdən biri Şəmsəddin Orucovun yaşadığı binanın foyesində pəncərəni deşərək keçmiş, düz Şəmsəddinin sol çiyninin üstünə dəymiş, onu qonşuların gözü qarşısında şəhid etmişdi...

**25 YANVARIN GÜNDÜZÜ**

Yanvarın 25-i adi bir qış günü kimi açıldı. Günəş çıxsa da, havada sazaq vardı. Gecə yağdığından yer nəm idi, çala-çuxur yerlərdə su görünürdü.

Neftçala matəm içində idi. Səhər təzə açılsa da, mədəniyyət sarayının qarşısında qurulmuş geniş çadırın ətrafı adamla dolu idi. Kimi iri samovarlara odun atır, kimi içəridəki dəmir sobaları qalayırdı. Avazla Quran oxuyan mollanın gur səsini meydana qoyulmuş reproduktorlar dalğa-dalğa ətrafa yayırdı. Bura yığışan adamların gecə baş vermiş narahat hadisələrdən, gələn həyəcanlı xəbərlərdən məlumatları yox idi. Əvvəl Bankədəki hərbi hissədə xidmət edən həmyerli zabitimiz Əzizağa Əbilov oradakı hərbçilərin gecə Xalq Cəbhəsinin binasına, fəal cəbhəçilərin evlərinə hücuma keçib cəbhəçiləri bir-bir yığacaqları, Cəbhəyə məxsus silahları, sənədləri yığıb götürəcəkləri xəbərini eşidib telefonla məlumatı evində xəstə yatan «Oktyabr bayrağı» qəzetinin məsul katibi İbrahim Nuriyevə, İbrahim müəllim Əlövsət Əliyevin ailəsinə, Cəbhənin qərargahına növbə çəkən Abdulhəsən Dadaşova çatdırmışdı, onlar da həmin məlumatı bir-birinə ötürərək fəal cəbhəçilərin gecə evlərində qalmamalarını tapşırmışdılar. Ancaq hərbi hissədə məlumatın sızdığını bildiklərinə görə gecə deyilən hücum olmamışdı.

O gecə daha bir narahat hadisə baş vermişdi. Rayonda ikihakimiyyətlik idi. Dövlət orqanları bacardıqları kimi vəzifələrini yerinə yetirirdilər, radikal cəbhəçilər də onların hər addımını güdür, təxribat salıb təqsiri Cəbhənin üstünə atacaqlarından ehtiyat edirdilər. Gecə yarısı uniformada gəzmələri cəbhəçilər tərəfindən qadağan edilən milis keşikçiləri mülki paltarda köhnə maşınla Neftçaladakı hərbi qarnizonun yaxınlığından keçərkən maşınları xarab olmuşdu, onu düzəldib işə salmaq istəyəndə köhnə mühərrik bərkdən partapart salmışdı. Səsi eşidən cəbhəçilərin keşikçisi Natiq Hüseynov öz adamları ilə onları yaxalayıb Xalq Cəbhəsinin qərargahına gətirmişdi. Demişdi siz burada partapartı qəsdən salırsınız ki, qarnizondakılar elə bilsinlər biz onlara atəş açırıq, onlar da bizə atəş açsınlar, araya qarışıqlıq düşsün, siz də bizi təqsirləndirib həbsə alasınız. Çox mübahisədən sonra Natiqgil yaxaladıqları milis işçilərini evlərinə buraxmışdılar, maşınlarını isə həbsə alıb Xalq Cəbhəsi qərargahının həyətində saxlamışdılar. Səhər tezdən Cəbhənin qərargahına yığışan cəbhəçilər və iqtidar nümayəndələri bu məsələni müzakirə edir, Natiqdən saxlanılan maşını milis şöbəsinə qaytarmağı xahiş edirdilər. Natiqsə dediyindən dönmür, saxladığı maşının ona maddi sübut kimi lazım olduğunu söyləyirdi. Rayon prokuroru Cülmalı Nuriyev hövsələylə məsələnin hüquqi tərəfini aydınlaşdırıb deyirdi ki, işi birgə akt bağlamaqla da bitirmək mümkündür. Natiq əlini ölçə-ölçə danışır, onunla razılaşmırdı. Deyirdi hamınız təxribatçısınız, bizi dolaşdırıb tutmaq istəyirsiniz. Gülmalı müəllim dərindən köksünü ötürüb təəssüf hissi ilə: - Yenə deyirəm, - dedi, - elə edin, sabah sizi müdafiə edə bilək.

**NEFTÇALADA 25 YANVAR QIRĞINI**

Həmin o soyuq qış günü tez başa çatdı, tez axşam düşüb hava qaraldı. Rayon partiya komitəsinin birinci katibi Şamil Hüseynovu təcili Bakıya çağırmışdılar. Raykomun üçmərtəbəli daş binasında əyləşənlər bunun səbəbini bilmirdilər.

Qərargahın yanında, ətrafında, qapısı ağzında toplaşan adamlar vəziyyəti müzakirə edir, son məlumatları öyrənmək istəyirdilər. Birdən xəbər gəldi ki, idarə heyətinin üzvlərini müdafiə komitəsinin otağına çağırıblar, orada hərbçilərlə danışıq gedir. Neftçaladakı sərhəd zastavası komandirinin «QAZ-69»-unun qərargahın qarşısında nə vaxt dayandığını heç kəs görməmişdi. Zastavanın komandiri podpolkovnik Raspopinlə birlikdə bir kapitan da gəlmişdi. Onda rayonda xəbər yayılmışdı ki, guya cəbhəçilərdə çoxlu silahsursat var. Əslində, bu xəbər radikal cəbhəçilərin boş hay-küyündən, özlərini yalandan öyməlerindən yaranmışdı, burada elə də çox silah-sursat olmamışdı. Olanlar da sahiblərinə qaytarılması üçün yanvarın 22-də rəsmi şəkildə rayon milis şöbəsinə təhvil verilmişdi. Belə söz-söhbətlərlə bağlı sərhəd zastavasının komandiri Xalq Cəbhəsi ilə telefon əlaqəsi saxlamış, Müdafiə Şurasının üzvləri ilə görüşmək, vəziyyəti birlikdə müzakirə etmək istədiklərini bildirmişdi. Bu görüş də onun xahişi ilə təşkil olunmuşdu.

Hərbçilərlə söhbət aparılması xəbərini eşidən kimi tez müdafiə komitəsinə getdim. Məqsədim Fərman bəyə tapşırmaq idi ki, raspopinə desin, daha müdafiə komitəsini ləğv etmişik, bizdə heç bir silah-sursat yoxdur. Adıhüseyn Qənbərov mənə dedi ki, vəziyyət çətindir, bilmək olmaz danışıq necə qurtaracaq. Yaxşı olar adamları buradan çadıra aparasan, qoy onlar bizə maneçilik törətməsinlər.

Elə bu vaxt Böyük Oriyat tərəfindən gələn yolla üç üstüörtülü «Ural» maşını qərargaha yaxınlaşdı. Onların görkəmi heç kəsdə şübhə doğurmadı. Maşınlar düz qərargahın qarşısında dayandı. Əyinlərində nataraz bronjilet olan cantaraq hərbçilər göz qırpımında yerə atılıb əllərindəki avtomatlardan ətrafdakı binalara, Xalq Cəbhəsinin qərargahına, səmaya fasiləsiz atəş açmağa başladılar. Avtomatlardan atılan istifadəsi qabağan edilmiş, bədənə toxunarkən istiqamətini dəyişib bütün orqanizmi fırlanan, bütün üzvləri sıradan çıxaran işıqsaçan güllələr vıyıltı ilə uçaraq hamını vahiməyə salır, dəhşətə gətirirdi. Hərə bir tərəfə qaçmağa başladı.

Qərargahın yaxınlığındakı çadırın içindəki o qədər adamın oradan nə vaxt çıxıb qaçdığını, nə vaxt dağıllışdığını heç kəs görmədi, hiss etmədi. Çaş-baş qalan adamlar küçə boyu qaçışır, gizlənməyə yer axtarırdılar. Evinə gedərkən xeyli bazarlıq edib arxa oturacağın üstünə yığan Kür çayının sahilindəki pavilyonun aşpazı Nurəddin Ağahüseynov «Zaporojes»i ilə oradan keçəndə qarışıqlıq düşdüyünü görüb tez maşını saxladı, geri dönüb aradan çıxmağa çalışdı. Ancaq bacarmadı. Yağış kimi üstünə yağan güllələr maşınını dəlik-deşik etdi, bir güllə də başına dəyib beynini dağıtdı. O, huşunu itirib sükanın üstünə yıxıldı, maşını işləyə-işləyə qaldı. Küçə bir anın içində boşaldı...

Hərbçilər az vaxtda xeyli adamı mühasirəyə alıb saxlaya bilmişdilər. Qaçmaq istəyənlər başlarına dəyən avtomat qundaqlarının zərbələrindən huşlarını itirib yerə sərilir, yerdə də hərbçilərin ağır təpiklərini yeyirdilər. Qışqırıq, rus dilində komanda, söyüş səsləri bir-birinə qarışmışdı. Bir çoxları sürünüb aradan çıxmağa çalışsa da bacarmırdı.

Hərbçilər hara gəldi atəş açırdılar. Güllələr işıq saçaraq havaya millənir, divarlara dəyir, pəncərə şüşələrini çilik-çilik edib yerə səpirdi. Sınan şüşələrin çilikləri asfalta səpildikcə evlərdə qadınların, uşaqların, xəstələrin fəryadı ucalır, adamı vahiməyə salırdı.

Bayırdakı hay-küyü eşidib içəridəkilər diksindilər. Qapının ağzında dayanmış Mustafa Əliyev, Etibar Cavadov və Əli Əsgərli vəziyyəti öyrənmək üçün dəhlizə çıxdılar. İkinci qapını açanda dəhşətlə üzləşdilər. Silahlı hərbçilər hara gəldi atəş açırdılar. Boyca hamıdan uca olan Əli Əsgərli hərbçilərin bədheybət görkəmlərindən özünü itirdi. Dərhal bunların xüsusi təyinatlı hərbçilər olduğunu başa düşdü. Qapını örtmək istəyəndə güllələr yanlarından ötdü, onlara dəymədi. Mustafa özünü ikinci otağa atıb cəbhəçiləri xəbərdar etmək istədi. Ancaq qapı özü açıldı. İçridəkilər güclü axınla dəhlizə axışmağa başladılar. Onların təzyiqinə tab gətirməyən Mustafa yerə yıxıldı. Güllələr otağın taxta divarlarını dəlib keçməyə başladı. Qapıdan bir az aralı iki nəfər yaralandı, yerə sərilib çapaladı. Əbülfəz Cəfərovla Novruz Dadaşov da qapının ağzında vurulmuşdular. Onlardan başqa da bir neçə yaralı vardı. Nizami Nəcəfov da başından zədə almışdı.

Cəbhəçilərlə birlikdə yerə sərilməyə məcbur edilmiş podpolkovnik Raspopin bir neçə dəfə ayağa qalxıb nəsə demək istədi, ancaq xüsusi təyinatlılar ona imkan vermədilər. Raspopinlə gələn kapitan qaniçən hərbçilərin üstünə qışqırıb dedi, siz neyləyirsiniz, o, sərhəd zastavasının komandiridir. Hərbçilər avtomatın qundağı ilə onun da başından vurub yerə yıxdılar. Fərman Hüseynov Abdulhəsən Dadaşovla yanaşı uzanmışdı. O, podpolkovniklə kapitanın başlarına gətirilən oyunu görüb fikirləşdi ki, daha sonlarıdır, ürəyindən keçirdi, bu da axırı...

Bu vaxt Fərmangilin baş tərəfinə nəsə düşüb fısıldaya-fısıldaya alışdı. Tərpənmək mümkün olmasa da, Abdulhəsən yubanmadı, uzanmış halda həmin şeyi cəld qapıb var gücü ilə uzağa atdı. Güclü partlayış otağı başına götürdü. Divarların, tavanın suvaqları qopub üstlərinə səpələndi. Partlayıcı imiş. Otaqdakılar dəhşətdən özlərinə gəlməmiş qapı ağzından bir hərbçinin vəhşi bağırtısı eşidildi:

- Vıxodite, po odnomu!

Ayağa qalxdılar, əllərini başlarının arxasına qoyub bir-bir qapıya yaxınlaşdılar. Həyətə çıxmaq da asan deyildi. Hər tərəfdən üstlərinə təpik, avtomat zərbələri enirdi. Yıxılmaq daha təhlükəli idi, yerlərindəcə vurula bilərdilər. Otaqdan axırda Fərman çıxdı. Maşınlar yaxında idi. Bir neçə addım atmamış güclü zərbə hiss elədi, üzüqoylu səkinin kənarına sərildi. Qaranlıqda onu görən olmadı. Əlini qarnına aparanda barmaqları yapışqan kimi isti bir şeyə dəydi. Qan idi. Güllə ilə vurulduğunu bildi. Axırıncı hərbçi çəkmesi üzünün lap yanından keçdi. Küt ağrıdan qovruldu. Hiss etdi ağzından buxar çıxır. Qorxdu ki, hərbçilər buxarı görüb onu da taparlar, gəlib apararlar. Ağır güllə yarası almış Ramiz Hüseynovu da aparıb maşına atdılar.

Əsgərlər Xalq Cəbhəsinin yerləşdiyi başqa otaqların da divarlarını, tavanlarını güllə ilə dəlik-deşik etdilər, hamını məcburən yerə sərdilər. Danışmaq da qadağan edilmişdi. Həyətdə mühasirəyə alınıb tutulanları bir-bir gətirib içəri itələyirdilər. Cəbhə qərargahının qonşuluğunda yaşayan Məhəmməd Fərziyevi də qapılarının ağzından tutub bura gətirmişdilər. Həkim Əhmədağa Vəliyevi də kobud şəkildə içəri itələdilər. Namusu, Səfadəri, Abdulla müəllimi, sürücü Tahiri də tutmuşdular.

Vəhşi hərbçilər onları tapdayıb o yanbu yana keçir, hər şeyi vurub dağıdır, sındırıb tökürdülər. Hər yana kağız səpələnmişdi. Hərbçilərdən biri həmin kağızları, Xalq Cəbhəsinin sənədlərini bir yerə yığıb əlindəki iri sellafon torbaya doldurdu, maşına apardı. Əmr verib döşəməyə sərilən məhbusları ayağa qaldırdılar. Onlar artıq məhbus, vəhşiləşmiş imperiyanın əsirləri idilər. Əlləri başlarının arxasında bir-bir qapıdan çıxıb maşınlara tərəf getməyə başladılar. Üzərlərinə aramsız zərbələr endirilirdi. Qabaqdakılar maşına çatıb bana dırmaşırdılar. Məhəmməd də bana qalxanda kiminsə dəhşətli səsini eşitdi: «Vay, gözüm çıxdı!» Dərhal qərara gəldi qaçsın. Təpiyi ilə yan tərəfdə dayanan hərbçinin sinəsindən güclü bir zərbə endirib yerə atıldı. Bunu gözləməyən hərbçilər ani olaraq özlərini itirdilər. Məhəmmədə də bu lazım idi...

***Ələkbər ZAHİDOV,***
***tədqiqatçı-publisist.***